DOI: https://doi.org/10.36719/2663-4619/98/41-46

**Samirə Yusifova**
Bakı Dövlət Universiteti
yusifova.448@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜTT-YƏ ÜZVLÜYÜNÜN FAYDA VƏ RİSKLİ TƏRƏFLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

İkinci dünya müharibəsindən sonra meydana gələn vəziyyətdən qurtulmağa çalışan bir çox ölkə azad ticarət təcrübələrini həyata keçirməyi seçmişdir. Bu istiqamətdə həyata keçirilən araşdırmalar və tətbiqlər zamanla artmağa davam etmişdir. 1980-ci illərin sonlarında universal ölçülərə çatan bu inkişaf perspektivəri bütün dünyanı vahid bazara çevirməyə meylli idi. 1947-ci ildə GATT çərçivəsində başlanan gömrük tarifləri və kvotaların aradan qaldırılması ilə azad ticarət təcrübələrinin yayılmasına dair araşdırmalar Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması ilə daha geniş vüsət aldı.

ÜTT beynəlxalq ticarəti maksimum səviyyədə liberallaşdırmaqla azad və şəffaf rəqabət şəraitində dünyanın rifah səviyyəsini yüksəltmək məqsədi daşıyır. Bu məqalədə müasir dünyada öz yerini tutmağa hazırlaşan Azərbaycan Respublikasının 1997-ci il iyunun 23-dən ÜTT-yə üzvlüklə bağlı səyləri və onun üzvlük statusu araşdırılmışdır. Qeyd etmək lazımdır ki, həm üzvlüklə bağlı aparılan araşdırmalar, həm də bu araşdırmalar nəticəsində üzvlük prosesinin yekunlaşması Azərbaycan üçün müəyyən qazanc və itkilərə səbəb olacaqdır. Məqalədə bəhs olunan bu qazanc və itkilər müəyyən edilmiş və üzvlük prosesində həyata keçirilməli olan tədbirlər qısa şəkildə müzakirə edilmişdir.

***Açar sözlər:*** *ÜTT, təşkilati quruluş, Azərbaycan, Azərbaycanın ÜTT-yə üzvlüyü, fayda və risklər*

**Samira Yusifova**
Baku State University
yusifova.448@gmail.com

## Assessment of the benefits and risks of WTO membership of the Azerbaijan Republic

**Abstract**

In an attempt to break free from the post-World War II environment, many nations chose to implement free trade policies. Over time, more research and applications have been created in this area. These changes, which became global in scope in the late 1980s, had the tendency to make the world a one market. With the creation of the World Trade Organization, research on the spread of free trade principles through the elimination of customs tariffs and quotas-which had been started under the auspices of the GATT in 1947-was given greater prominence, and the authority of sanctions was reinforced.

WTO seeks to maximize worldwide trade liberalization in order to raise the degree of global welfare under transparent and open competition. This study focuses on the Republic of Azerbaijan's membership status and activities in the World Trade Organization (WTO), which was established on June 23, 1997. Azerbaijan is getting ready to assume its place in the modern world. There will be some gains and loses for Azerbaijan from the research done in preparation for membership as well as from the actualization of membership as a result of these studies. The study calculated the profits and losses given, and it briefly explained what needed to be done.

***Keywords:*** *WTO, organizational structure, Azerbaijan, Azerbaijans' WTO Accession, benefits and risks.*

## Giriş

Xarici ticarətdə proteksionist və liberal siyasət yanaşmaları arasındak; mübarizə uzun müddətdir ki, davam edir. Ölkələr müxtəlif dövrlərdə müxtəlif xarici ticarət siyasətləri həyata keçirmişdir. İkinci dünya müharibəsinin iqtisadiyyata vurduğu zərərlərdən qurtulmağa çalışan bir çox ölkə azad ticarət üsullarına üstünlük vermişdir. 1947-ci ildə GATT çərçivəsində başlanan gömrük tarifləri və kvotaların ləğvi ilə azad ticarət təcrübələrinin yayılmasına dair araşdırmalar Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması ilə daha geniş vüsət aldı və sanksiyaların gücü artırıldı (Bulut, 2007: 62-71). Bu gün ÜTT dünya ticarətinin 97%-ni təşkil edən 164 ölkənin üzvlüyünü əhatə edən bir ölçüyə çatmışdır. Bundan əlavə, üzv olmaq üçün danışıqları davam etdirən 22 ölkə mövcuddur. Bu ölkələr üzv olmadan əvvəl müəyyən şərtləri yerinə yetirməli, üzv olmağın xərclərini və onun üstünlüklərini diqqətlə təhlil etməlidirlər (2).

Qeyd etmək lazımdır ki, ÜTT-yə namizəd olacaq ölkə tarif praktikasını artırmamalı, kvota praktikasına əl atmamalı, yerli və xarici mal və xidmətlər arasında fərq qoymamalı, ən çox üstünlük verilən ölkə qaydasına uyğun olaraq bütün ölkələrə eyni tarifləri tətbiq etməli, ticarət siyasətini şəffaf formada həyata keçirməli, daxili bazarlarını ÜTT qaydalarına uyğun bir şəkildə qorumalı, azad rəqabət şəraiti yaratmalı, kommersiya problemlərini qarşılıqlı danışıqlar yolu ilə həll etməlidir.

**Ümumdünya Ticarət Təşkilatının yaranması prosesi** – İkinci dünya müharibəsindən sonrakı dövrün şərtlərinə uyğun olaraq meydana çıxan qurumlardan biri də Ümumdünya Ticarət Təşkilatıdır (İTO). Bu dövrdə belə bir qurumun Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə yanaşı sərbəst xarici ticarət sisteminin yaradılmasını təmin etmək və ya buna mane olan amilləri aradan qaldırmaqla beynəlxalq ticarəti çoxtərəfli qaydalara bağlamaq üçün zəruri olduğu hesab edilirdi. Buna uyğun olaraq bir çox ölkələrin nümayəndələri 1947-48-ci illərdə Kubada (Havana) toplaşaraq Ümumdünya Ticarət Təşkilatının (Havana Konvensiyası) təsis qanununu hazırladılar (Seyidoglu, 2015: 12-18). Ümumdünya Ticarət Təşkilatı qanunlarının müvafiq ölkələrin hökumətləri tərəfindən vaxtında qəbul edilməməsi səbəbindən müvəqqəti razılaşma kimi ortaya çıxan GATT daimi bir təşkilata çevrilmişdir (Mammadov, 2005: 19-23). GATT çərçivəsində 1947-ci ildən 1994-cü ilə qədər 47 illik dövr ərzində səkkiz müxtəlif çoxtərəfli ticarət danışıqları aparılmışdır. Bunlardan dördü konfrans, digər dördü isə çoxtərəfli ticarət danışıqlarıdır. Son danışıqlar (raund) 15-20 sentyabr 1986-cı ildə Uruqvayın Punto del Este şəhərində bir araya üzv ölkələrin ticarət nazirləri tərəfindən dərc edilmiş bəyannamə ilə başlamış və 15 dekabr 1993-cü ildə kompromis əldə edilərək GATT Uruqvay raundu ilə nəticələnənmişdir. 15 aprel 1994-cü ildə Ümumdünya Ticarət Təşkilatını (ÜTT) əsasını qoyan Mərakeş Sazişi Mərakeşdə keçirilən Nazirlər Konfransının yekununda üzv ölkələrin hökumətləri tərəfindən imzalanmış və Uruqvay Raundu Yekun Aktı qəbul edilmişdir. Beləliklə, 1995-ci il yanvarın 1-dən Uruqvay Raundu Sazişləri qüvvəyə minmiş və ÜTT faktiki olaraq fəaliyyətinə başlamışdır (Hüseynova, 2018: 8-11).

**Cədvəl 1: GATT Konfransı və Danışıq Raundları.**

| Yer / Ad | İl | Müzakirə olunan mövzular | Ölkələrin sayı |
|---|---|---|---|
| Cenevrə Konfransı (İsveçrə) | 1947 | Tariflər | 23 |
| Annesi Konfransı (Fransa) | 1949 | Tariflər | 13 |
| Torquay Konfransı (İngiltərə) | 1951 | Tariflər | 38 |
| Cenevrə Konfransı (İsveçrə) | 1956 | Tariflər | 26 |
| Dillon Raundu (İsveçrə-Cenevrə) | 1960-1961 | Tariflər | 26 |
| Kennedy Raundu (İsveçrə-Cenevrə) | 1964-1967 | Tariflər və antidempinq tədbirləri | 62 |

| | | | |
|---|---|---|---|
| Tokyo Raundu (İsveçrə-Cenevrə) | 1973-1979 | Tariflər, qeyri-tarif tədbirləri və çərçivə sazişləri | 102 |
| Uruqvay raundu (Uruqvay- Punta del Este) | 1986-1994 | Tariflər, qeyri-tarif tədbirləri, qaydalar, xidmətlər, əqli mülkiyyət hüquqları, mübahisələrin həlli, tekstil, kənd təsərrüfatı, ÜTT-nin yaradılması və s. | 123 |

**Mənbə:** İnternet resursları esasında müəllif tərəfindən hazırlanmışdır.

1 yanvar 1995-ci ildən etibarən GATT prosesinin daxil olduğu yeni mərhələ əvvəlki və sonrakı dövrlərin fərqli adlandırılmasına səbəb olmuşdur. 1947-ci ildən bəri mövcud olan və həm təşkilat, həm də qayda-qanun yaratma müqaviləsi olan köhnə GATT "GATT 1947" olaraq adlandırıldığı halda, ÜTT-nin meydana çıxması ilə fərqli bir forma qazanan yeni GATT "GATT 1994" olaraq adlandırılmışdır. Qeyd edək ki, GATT 1994 daha əhatəli olmuş və həm GATT 47, həm də ÜTT-ni əhatə etmişdir (Robert, 2005: 103-107).

Uruqvay Danışıqlarına qədər ilk 7 raundda yalnız emal sənayesi məhsulları müzakirə edilir və tariflərin azaldılması təmin edilirdisə, ÜTT-yə danışıqların əhatəsinə kənd təsərrüfatı məhsulları, xidmətlər, əqli mülkiyyət hüquqları, ticarətlə bağlı sanksiya tədbirləri və ticarət siyasətlərini nəzərdən keçirmə mexanizmi daxil olmuşdur. Bundan əlavə, əvvəllər sazişin əhatə dairəsinə daxil olmayan və Tokio Raundunun sonunda qəbul edilmiş Subsidiyalar və Kompensasiya Vergi Tədbirləri, Ticarətdə Texniki Maneələr, İdxal Lisenziyası Proseduru, Dövlət Satınalmaları, Gömrük Qiymətləndirmə və Antidempinq Sazişləri ÜTT-nin əhatə dairəsinə daxil edildi.

Ümumdünya Ticarət Təşkilatının yaradılması haqqında saziş dörd əlavədən və bu əlavələrin alt başlıqlarından ibarətdir. Bunların arasında Əlavə-1 Çoxtərəfli Ticarət Sazişlərini əhatə edir və üç alt başlıqdan ibarətdir: Malların Ticarəti üzrə Çoxtərəfli Sazişlər, Xidmətlərin Ticarəti üzrə Baş Saziş və Ticarətlə Əlaqədar Əqli Mülkiyyət Hüquqları üzrə Saziş. Əlavə-2 Mübahisələrin Həlli Qaydaları və Prosedurları haqqında Sazişdir. Əlavə-3 Ticarət Siyasətinə Nəzarət Mexanizmi haqqındadır. Əlavə-4 isə Çoxsaylı Ticarət Sazişlərini əhatə edir. Müqaviləni imzalayan ölkələr avtomatik olaraq Əlavə 1, 2 və 3-ü imzalayacağı halda, Əlavə 4-ü istəyən ölkə isə onu ayrıca imzalamalıdır (Crowley, 2003: 46-53).

**Azərbaycanın ÜTT-yə üzvlük prosesi** – Azərbaycan ÜTT Katibliyinə üzv olmaq üçün 1997-ci il iyunun 23-də müraciət etmişdir. 16 iyul 1997-ci ildə bu müraciət üçün ÜTT tərəfindən İşçi Qrup yaradılmışdır. Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı Azərbaycan Respublikası Nazirlər Şurasının 22 avqust 2003-cü il tarixli qərarı ilə üzvlük məsələləri ilə məşğul olan Komissiya yaradılmışdır. 2009-cu ildə bu Komissiyanın yeni tərkibi təsdiq edilmişdir. Qoşulma prosesini sürətləndirmək məqsədilə 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmişdir. Yarandığı gündən 2023-cü ilə qədər İşçi Qrup 15 iclas keçirmişdir (Hüseynova, 2018: 8-11).

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Katibliyinin xarici iqtisadi əlaqələr sahəsində ÜTT-yə üzvlük məsələsi ilə bağlı apardığı araşdırmanın nəticələrinə görə, xarici investorlar ümumilikdə investisiya imkanları daha çox və riskləri az olan və investisiya siyasətini yaxşı bir şəkildə həyata keçirə bilən ölkələrə investisiya yatırırlar. Digər tərəfdən, xarici investorlar ÜTT-yə üzv olan ölkələrə sorğu-sualsız investisiya qoymağa çalışırlar. Bu baxımdan ÜTT Azərbaycanda baş verən müsbət dəyişikliklər barədə digər üzv ölkələri və xarici investorları mütəmadi olaraq məlumatlandırmaqla ölkəyə kapital cəlb edə bilər. Azərbaycanın üzvlüklə bağlı danışıqlarda mövqeyi dörd əsas istiqamətdə müəyyən edilmişdir. Bunlar aşağıdakılardır (8):

- Mal Ticarəti
- Xidmət Ticarəti
- Əqli mülkiyyət
- ÜTT qaydalarından kənar məsələlər

Bu mövqelərin prinsiplərini tədqiq etməzdən əvvəl bilinməli və vurğulanmalı olan əsas məsələlərdən biri də odur ki, üzvlüklə bağlı danışıqlar zamanı Azərbaycanın iqtisadi maraqlarına zidd olan öhdəliklərin qəbul edilməsinin qarşısını almaq məqsədilə bir sıra işgüzar dairələrlə birlikdə müxtəlif məsələlər ətrafında dövlət qurumları ilə məsləhətləşmələr aparılmalı və beləliklə üzvlük prosesində şəffaflıq təmin edilməlidir. Ayrı-ayrı mallar, eləcə də sənayenin ən həssas sahələri, eləcə də yüksək ixrac potensialına malik olan sahələr üçün prioritet tendensiyalar müəyyən edilməli və gömrük rüsumları, kreditlər və subsidiyaların üstünlüklərindən səmərəli istifadə edilməlidir. Gömrük rüsumları orta səviyyədə qalmaq şərti ilə istehsalı ölkə üçün az sərfəli məhsullar üçün aşağı, ölkə daxilində istehsalı daha sərfəli məhsullar üçün isə yüksək tətbiq edilməlidir.

Həm çoxtərəfli, həm də ikitərəfli danışıqlar üçün digər üzv ölkələrin təcrübəsi nəzərə alınmaqla yüksək təcrübəli ekspertlərdən ibarət Konsensus Qrupu yaradılmalıdır. Qoşulma prosesi zamanı Konsensus Qrupu ÜTT tələblərini nəzərdən keçirməli, həmçinin ÜTT Katibliyi ilə əlaqə saxlamalı və qarşılıqlı tövsiyələr verməlidir. Bu xüsusiyyət ikitərəfli danışıqlarda yaxşı nəticələrin əldə edilməsində təsirli ola bilər (Muradov, 2005: 40).

Ümumiyyətlə, üzvlük prosesində şəffaflığın təmin edilməsi və məlumatların vaxtında ictimaiyyətə çatdırılması qeyri-konstruktiv elementlərin fəaliyyətinin qarşısını ala bilər (Rustamov, 2005: 52).

**Azərbaycanın ÜTT-yə üzvlüyündə mümkün qazanc və itkilər** – Yuxarıdakı bəyanatlardan da məlum olduğu kimi, ÜTT beynəlxalq ticarəti maksimum səviyyədə liberallaşdırmaqla azad və şəffaf rəqabət şəraitində dünya rifahının səviyyəsini yüksəltmək məqsədi daşıyır. Azərbaycan Respublikasının bu quruma üzv olmaq üçün göstərdiyi səylər və bu araşdırmaların müsbət nəticələri nəticəsində bəzi məqamlarda qazanc, bəzi cəhətlərdə isə itkilərlə üzləşəcəyi müşahidə olunur. Ölkənin mümkün qazanc və zərərlərini aşağıdakı kimi sıralamaq olar.

**Mümkün qazanclar:**

- Üzv ölkələr tərəfindən qəbul edilmiş ümumi qaydalar çərçivəsində xarici ticarət əməliyyatları həyata keçirməklə dünya iqtisadi sisteminə inteqrasiyanı sürətləndirmək,
- Əsas ticarət tərəfdaşları və mühüm qonşularla eyni şərtlərə malik olmaq,
- ÜTT-yə üzv ölkələrin öz aralarında tətbiq etdikləri endirimlərdən faydalanmaq,
- İqtisadi problemlərin həllində ÜTT qaydalarından və birlik mexanizmindən yararlana bilmək,
- ÜTT çərçivəsində çoxtərəfli ticarət sisteminin inkişafında və bu məsələ ilə bağlı danışıqlarda iştirak etmək imkanı əldə etmək,
- Mövcud standartların beynəlxalq tələblərə uyğunlaşdırılması,
- Yeni gömrük qaydaları nəticəsində xərclərin azalması əmtəə və xidmətlərdə də özünü göstərməsi ilə əhalinin orta hesabla dünya səviyyəsindən aşağı qiymətə mal və xidmətləri alması üçün imkan yaranması,
- Qəbul edilmiş qaydalar çərçivəsində əmtəə nişanları və müəllif hüquqlarının həyata keçirilməsi,
- Artan şəffaflıq nəticəsində xarici kapital axınının, xüsusən də qeyri-neft sektoruna axının artması (Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün strateji tədqiqatlar aparılır və proqramlar həyata keçirilir),
- İqtisadi fəaliyyətləri tənzimləmək və hüquqi təcrübələri şəffaflaşdırmaqla iqtisadi inkişaflar haqqında kifayət qədər məlumata malik olmaq və dövlətin əvvəlcədən qəbul edəcəyi qərarları müzakirə edə bilməsi,
- Mövcud təcrübələri şəffaflaşdırmaq və prosedurları sadələşdirməklə sahibkarlıq fəaliyyətini çətinləşdirən praktikaların və istehsal xərclərini artıran dolayı müdaxilələrin azaldılması və bu fəaliyyətlərə səlahiyyətli orqanlar tərəfindən nəzarət və tənzimlənmə həyata keçirilərək sui-istifadə hallarının qarşısının alınması (Əliyev, 2007: 17).

**Mümkün itkilər.**

- Xarici ticarətdə kəmiyyət məhdudiyyətlərinin tətbiq edilə bilməməsi,

- Ticarətin liberallaşdırılması səbəbindən qoruyucu tədbirlər kifayət etmədiyi təqdirdə, bazar daha ucuz olan xarici mallarla dolması,
- Müəyyən ediləcək keçid dövründə rəqabətədavamlı və ixracyönümlü istehsal tərzi yaradıla bilməzsə, sonrakı mərhələlərdə bir çox çətinliklər yaşanması,
- Xidmət sektorunda daha ucuz və keyfiyyətsiz xidmət təminatçılarının olması,
- Mühafizə maneələrinin aradan qaldırılması və dövlət dəstəyi ilə ölkə əhalisinin yarısını əhatə edən aqrar sektorda rəqabətədavamlı məhsul istehsal etməyin çətinləşməsi (Kənd təsərrüfatı sektoru həm ixrac məhsullarında, həm də milli gəlirdə 11,4%-lik payla neftdən sonra ikinci yerdədir.). Bundan əlavə, kənd təsərrüfatında çalışanların əksəriyyətinin kommersiya məqsədləri üçün deyil, şəxsi ehtiyaclarını ödəmək üçün işləmələri potensial çətinlikləri artırır (Zeynallı, 2023: 5).
- Gömrük və digər vergi praktikasındakı azalma ilə əlaqədar dövlət büdcəsinin gəlirlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsi (orta hesabla 10% olan idxal gömrük rüsumlarının büdcə payı 24% təşkil edir),
- Üzvlüyün ilkin mərhələsində sərbəst sahibkarlıq fəaliyyəti və fərdi inkişaf imkanları üçün mövcud şəraitin kifayət dərəcədə olmaması (Azərbaycanın iqtisadi azadlıq səviyyəsi 164 ölkə arasında 103-dür. Bundan başqa, Dünya Bankı mənbələrinə görə, 123 günü əhatə edən 14 prosedurdan keçmək lazımdır).
- Qeyri-neft sektorlarında müqayisəli üstünlüklərin əldə edilməsinə mane olan amillərin mövcudluğu (Kavass, 2006: 83).

## Nəticə

Üzvlük prosesində yarana biləcək mümkün qazanc və itkilər müəyyən edildikdən sonra ölkənin maraqlarına uyğun olaraq mümkün qazancların artırılması və itkilərin azaldılması üçün nələrin edilə biləcəyi müəyyənləşdirilməyə çalışılmalıdır. Müvafiq olaraq, görülməli olan bəzi tədbirləri bu formada sıralamaq olar: Azərbaycan ikitərəfli danışıqlara daha çox önəm verməklə lazımi tədbirləri davam etdirməlidir. Qarşılıqlı müzakirələrdə yüksək səviyyəli rəylərin təqdim edilməsi üçün sahə üzrə ekspertlərdən ibarət “Məsləhət Şurası” yaradılmalıdır.

Üzvlük prosesi hər bir iqtisadi sektorun prioritetləri, güclü və zəif tərəfləri müəyyən edilərək lazımi qorunma və dəstək dərəcələri ilə başlamalıdır. Vergi dərəcələrinin ümumiyyətlə aşağı olacağını nəzərə alaraq, çox əhəmiyyət kəsb etməyən mallar üçün vergi dərəcələri aşağı, digərləri üçün isə artırıla bilər. Təbii ki, iqtisadi inkişafın təkcə gömrük təcrübələri ilə mümkün olmadığını nəzərə alaraq, lazımi mikro və makro təhlillər aparılmalıdır. Dövlət neft gəlirlərindən istifadə etməklə yanaşı, qeyri-neft sektorlarının inkişafı üçün həyata keçirdiyi siyasəti davam etdirməlidir. Ölkənin inkişafının tükənən və yenilənməyən, müxtəlif dövri inkişaflardan asılı olan bir qrup mallar üzərində qurulması düzgün olmayacaqdır.

Ümumdünya Ticarət Təşkilatına qəbulun itkilərdən çox qazanc gətirib-gətirməməsi müvafiq ölkənin iqtisadi strukturundan və inkişaf səviyyəsindən asılıdır. Üzvlük vasitəsilə dünya iqtisadiyyatına inteqrasiya, xarici ticarətin liberallaşdırılması, maneələrin aradan qaldırılması, tariflərin aşağı salınması, şəffaflığın artırılması, patent müraciətlərinin həyata keçirilməsi və qanunların beynəlxalq standartlara uyğunlaşdırılması təmin ediləcəkdir. Bu nəticələrin ən münasib zamanda və şəraitdə əldə edilməsi üçün Azərbaycan mövcud şərtləri çoxşaxəli prizmadan dəyərləndirməlidir.

## Ədəbiyyat

1. Bulut, C. (2007). Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün qiymətləndirilməsi. Qazi Universiteti İqtisadiyyat və İdarəetmə Fakültəsi Jurnal 9(2), s.62-71.
2. https://economy.gov.az/az/page/beynelxalq-elaqeler/umumdunya-ticaret-teskilati-wto-ve-azerbaycan
3. Seyidoglu, H. (2015). Beynəlxalq İqtisadiyyat, Nəzəriyyə və Siyasət Təcrübəsi. Güzem Can Yayınları, № 29. İstanbul, s.12-18.

4. Mammadov, A. (2005). What does the WTO Membership Promise for Business People?. Ekspert Economic Magazine, pp.19-23.
5. Hüseynova, S. (2018). Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzvlük yolunda: daxili siyasi və normativ prosedural hazırlıq. Elmi Məruzələr, Azərbaycan Qafqazşünaslıq İnstitutu, s.8-11.
6. Robert, H. (2005). Three (Potential) Pillars of Transnational Economic Justice: The Bretton Woods Institutions as Guarantors of Global Equal Treatment and Market Completion. Metaphilosophy, Vol. 36, pp.103-107.
7. Crowley, M.A. (2003). An introduction to the WTO and GATT. Economic Perspectives, Federal Reserve Bank of Chicago, pp.46-53.
8. https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/azerbaycan-umumdunya-ticaret-teskilati-utt-munasibetleri
9. Muradov, Ə.C. (2005). Azərbaycan və ÜTT: Xidmətlər. İqtisadiyyat və Sənaye Nazirliyi. Adiloğlu nəşriyyatı, 40 s.
10. Rustamov, V. (2005). Azerbaijan's Accession to the WTO and Economic Reforms. Ekspert Economic Magazine, pp.52-57.
11. Əliyev, R.H. (2007). Azərbaycan və Dünya Ticarət Təşkilatı. Bakı: Elm, s.17-24.
12. Zeynallı, M. (2023). Ümumdünya Ticarət Təşkilatı və Azərbaycanın kənd təsərrüfatı. Bakı: Demokratik Təşəbbüslər İnstitutu, s.5-9.
13. Kavass, İ.İ. (2006). ÜTT-yə üzv olma: Prosedur, tələblər və maliyyətlər. ÜTT-yə Üzv Olma nəşrlər seriyası. Bakı: Teymur Poligraf MMC, s.83-87.

Göndərilib: 11.10.2023 Qəbul edilib: 20.12.2023